iki sahil

# Ölkənin sosial-iqtisadi tərəqqi ilə uzlaşan demoqrafik inkişafı

## XALQ HƏR ADDIMDA ÖZÜNƏ DİQQƏT VƏ QAYĞININ ŞAHİDİDİR

**Dünyanın bir çox ölkələrində iqtisadi böhran illərində əhalinin sayında müşahidə olunan azalma prosesindən fərqli olaraq, respublikamızda demoqrafik artım öz əksini statistik rəqəmlərdə tapır.**

Cənab Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də davamlı olaraq yaxşılaşması özünü göstərir. Bu amillər isə demoqrafik inkişaf üçün vacib şərtlər sırasındadır.

Ölkə başçısı Cənab İlham Əliyev dəfələrlə qeyd edir ki, müstəqilliyimiz illərində qazanılan uğurlarımızdan ən önəmlisi ölkədə demoqrafik inkişafın yüksəlişi, hər cür qayğı ilə əhatə olunan əhalinin sayının artmasıdır. Dayanıqlı inkişaf şəraitində uğurlar qazanan Azərbaycan müsbət demoqrafik göstəriciyə görə də Cənubi Qafqazın lider ölkəsidir.

Müasir dövrün demoqrafik statistikasına nəzər salsaq görərik ki, 2003-cü ilin əvvəlindən ölkə əhalisinin sayı 18 faizdən çox və ya 1 milyon 731 min nəfər artıb. Azərbaycanda hər il doğulanların sayı artır. Məsələn, 2018-ci ildə ölkədə 139 min doğulmuş körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. Müsbət miqrasiya saldosu davam edir. 2018-ci ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı gedənlərin sayından iki dəfədən çox olub. 2003-cü ildə ölkədə gözlənilən ömür uzunluğu 72,3 yaş (o cümlədən kişilər arasında 69,5 yaş, qadınlar arasında 75,1 yaş) idisə, 2018-ci ildə bu göstərici 75,6 yaşa (o cümlədən kişilər arasında 73,1 yaşa və qadınlar arasında 77,8 yaşa) çatıb.

Ölkədə sosial sahədə inqilabi dəyişikliklər kimi qiymətləndirilən və hətta dünyanın inkişaf etmiş ölkələri üçün nümunə ola biləcək islahatların davamlı proses kimi diqqətdə saxlanılması əhalinin rifah halının daha da yüksəldilməsinə böyük təkan verməklə vətəndaşların artım tempinin qorunub saxlanmasına əminlik yaradır. Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi həqiqi mənada xalqımıza böyük sevinc bəxş etdi.

Ölkə Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanmaqla, ölkəmizdə davamlı demoqrafik inkişafın təmin edilməsi üçün əhali sakinliyi və demoqrafik inkişaf sahəsində yeni Dövlət Proqramı layihəsi hazırlanıb ki, layihədə ailə institutunun möhkəmləndirilməsi və ailə dəyərlərinin təbliği, ailələrə, xüsusilə gənc ailələrə sosial-iqtisadi dəstəyin gücləndirilməsi, əhalinin reproduktiv sağlamlığının, habelə ana və uşaqların mühafizəsinin gücləndirilməsi, həyat şəraitinin təhlükəsizliyinin yüksəldilməsi, miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsi kimi prioritet istiqamətlər müəyyən olunub.

Əhalinin artımı ilə bağlı genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri, idman kompleksləri istifadəyə verilir. Dövlət başçısı regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda bildirib ki, əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər: "Ancaq, əlbəttə, biz bundan sonra da işimizi elə görməliyik ki, iqtisadi inkişaf, iş yerlərinin yaradılması əhalinin artımından daha da sürətli getsin, artan əhali işlə təmin olunsun."



Bununla yanaşı, dövlət başçısının 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" da mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir.

Hazırda ölkəmizdə demoqrafik vəziyyətin qiymətləndirilməsi və təkmil proqnozlaşdırma metodologiyasının yaradılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi BMT-nin Əhali Fondu ilə birgə işlər aparılır.

Dövlətimizin başçısı İlham Əliyev ölkəmizdə keçirilən növbəti siyahıyaalınmada iştirak edərək siyahıyaalınma və sorğu vərəqələrinin suallarını cavablandırarkən bu məqamları da diqqətə çatdırmışdır ki, son dəfə siyahıyaalınma 10 il bundan əvvəl keçirilib. 10 ildə ölkəmizdə çoxlu dəyişikliklər baş verib. İlk növbədə, demoqrafik vəziyyət daha da yaxşılaşdı. Bu il 10 milyonuncu vətəndaşın dünyaya gəlməsini təntənə ilə qeyd etdik.

İşsizlik və məşğulluq probleminin həlli istiqamətində atılan addımların nəticəsidir ki, bu gün işsizliyin səviyyəsi 5 faizdir. Yoxsulluq da 5 faiz səviyyəsindədir. Beynəlxalq maliyyə qurumlarının hesabatlarında Azərbaycan öz mövqeyini uğurlu islahatları ilə möhkəmləndirir, hər bir hesabat əvvəlki ilin hesabatından yeniliyi ilə seçilir. "Biz, əlbəttə ki, öz işimizi reytinq almaq üçün qurmuruq" söyləyən ölkə Prezidenti İlham Əliyev, eyni zamanda bildirir ki, əlbəttə, belə fikirlər ortaya qoyulanda həm bizi daha da sevindirir, həm də dünyanın bütün maliyyə qurumlarına bir siqnaldır.

Dövlətimizin başçısı İlham Əliyev xüsusi vurğulayır ki, yeni iş yerlərinin yaradılması daimi proses olmalıdır. Bunu şərtləndirən əsas amil isə əhalinin sayının artmasıdır. İqtisadi tərəqqinin demoqrafik inkişafla uzlaşması "güclü dövlət, yüksək rifah" çağırışının reallıqda əksini tapdığını nümayiş etdirir.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsinin prioritetliyini xüsusi qeyd edən cənab İlham Əliyevin vurğuladığı kimi, ölkəmizdə işsizliklə bağlı görülmüş tədbirlər öz səmərəsini verir, vətəndaşların sosial rifahı yaxşılaşır. Təkcə cari ildə minimum əməkhaqqı təxminən iki dəfə artırılıb. Həmçinin pensiyalar, müxtəlif kateqoriyalardan olan vətəndaşların aylıq əməkhaqqı, tələbələrin təqaüdləri, müavinətlər artırılıb. Bir sözlə, sosial-iqtisadi inkişaf demoqrafik inkişafla uzlaşır və bu da təbiidir.

"Azərbaycanda bundan sonra da sabitlik təmin ediləcəkdir" söyləyən ölkə Prezidenti İlham Əliyev bildirir ki, bu gün görürük ki, dünyanın müxtəlif yerlərində sabitlik pozulanda nə investisiyalar gəlir, nə sosial rifah artır. Ümumiyyətlə, ölkələrin taleyi çox acı olur. Azərbaycanda sabitliyin təminatçısı isə Azərbaycan xalqıdır. Məhz xalq-iqtidar vəhdəti bu sabitliyi şərtləndirir. Bu vəhdət imkan verir ki, uzunmüddətli inkişaf strategiyamızı planlaşdıraq. Bu, imkan verir ki, bu gün Azərbaycana milyardlarla dollar xarici sərmayə qoyulur və Azərbaycan xalqı rahat, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayır. Ona görə bundan sonra da elə işləməliyik ki, Azərbaycan daim inkişaf etsin.

Məhz sabitlik fonunda Azərbaycan əldə olunan uğurlara söykənərək, yeni-yeni hədəflər müəyyənləşdirir və onlara nail olmaq üçün mühüm addımlar atır. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının ardınca müxtəlif istiqamətləri əhatə edən, davamlı inkişafa yol açan Yol xəritələrinin hazırlanması və icrası da deyilənlərin təsdiqidir.

Cənab İlham Əliyev əsas diqqəti uğurlarımızın əsasında dayanan xalq-iqtidar birliyinə yönəldir. Hər bir çıxışında "Hakimiyyətin yeganə mənbəyi xalqdır" söyləyən cənab İlham Əliyev bu dayağa güvəndiyini, uğurlu addımlarda stimul olduğunu xüsusi vurğulayır. Bu birliyə, həmrəyliyə əsas verən amil isə təbii ki, dövlətin siyasətinin əsasında vətəndaş amilinin dayanması təşkil edir. Xalq hər addımda özünə diqqət və qayğının şahididir. Bircə faktı qeyd etmək kifayətdir ki, dünyanı bürüyən iqtisadi və maliyyə böranı dövründə dünya dövlətlərində sosial ödəmələr azaldığı halda, Azərbaycanda bütün sosial layihələr uğurla icra edilib, sosial müdafiənin gücləndirilməsi istiqamətində biri-birindən əhəmiyyətli addımlar atılıb. Ən əsası Azərbaycan özünü dünyaya sosial dövlət kimi təqdim edib. Təkcə cari ilin ötən dövründə imzalanan Fərman və sərəncamlara diqqət yetirmək kifayətdir ki, təsdiqlənən davamlı sosial paketlər insan amilinə verilən dəyəri bir daha ortaya qoydu.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***